**Azərbaycan Respublikası**
**Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurası**

# QƏRAR № 5

Bakı şəhəri, "23" may 2018-ci il

Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurası sədrinin səlahiyyətlərini icra edən Rasim Vaqif oğlu Quliyevin sədrliyi ilə və sahibkar Nadir Hümbət oğlu Əhmədovun (VÖEN:1600202022) iştirakı ilə Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasından Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasına daxil olmuş və 25.04.2018-ci il tarixdə qeydiyyatdan keçmiş 7-2427/7 nömrəli şikayətə 23 may 2018-ci il tarixdə baxaraq,

**MÜƏYYƏN ETDİ:**

Bakı şəhəri Binəqədi rayonunda sahibkarlıqla məşğul olmaq üçün vətəndaş Əhmədov Nadir Hümbət oğlu 07.02.2018-ci il tarixli ərizə ilə Bakı Şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma Baş İdarəsinə müraciət edərək, Binəqədi rayonu, Binəqədi qəsəbəsi, 1-ci mədən küçəsi, 2-ci döngə,14 saylı ünvanda xüsusi mülkiyyətində olan torpaq sahəsində avtotəmir kompleksinin, mehmanxana və inzibati binanın tikintisinin layihələndirilməsinə icazə verilməsini xahiş etmişdir.

Müəyyən olunmuşdur ki, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 08.06.2017-ci il tarixli, Seriya RX №1072829 nömrəli Çıxarışa əsasən sözügedən ünvanda 4.33433ha torpaq sahəsi vətəndaş Əhmədov Nadir Hümbət oğlunun mülkiyyətindədir.

Eyni zamanda vətəndaş Əhmədov Nadir Hümbət oğluna Bakı Şəhər İcra Hakimiyyəti Memarlıq və Şəhərsalma Baş İdarəsi Şəhər Ərazisinin Tikinti-Planlaşdırma İdarəsi 15.03.2018-ci il tarixli 18/03-8/721 nömrəli məktubu ilə torpaq sahəsi üzərində mülkiyyət hüququnu təsdiq edən çıxarışda torpaq sahəsinin kateqoriyası "Sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı" torpaqlar göstərildiyindən, sözü gedən ərazinin məqsədli təyinata uyğun olaraq, kateqoriyası digər aidiyyəti kateqoriyaya keçirilməsi barədə məlumat verilmişdir.

Eyni zamanda, vətəndaş N.H.Əhmədovun təqdim edilmiş layihə sənədlərinə baxılarkən müəyyən olunmuşdur ki, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 08.06.2017-ci il tarixli, Seriya RX №1072829 nömrəli Çıxarışa əsasən Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəsəbəsi, 1-ci mədən küçəsi, 2-ci döngə,14 saylı ünvanda 4.33433 ha torpaq sahəsi vətəndaş N.H.Əhmədovun mülkiyyətində olmaqla yanaşı "Binəqədi Oil Kompani" Şirkətinin kontrakt ərazisinin hüdudları daxilində yerləşir.

Bununla bağlı, Bakı Şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma Baş İdarəsi 18/03-8/1575 nömrəli, 11.05.2018-ci il tarixli məktubla SOCAR-ın prezidenti cənab Rövnəq Abdullayevə sorğu məktubu göndərərək, məsələyə dair müvafiq rəy bildirməsini xahiş etmişdir.

Həmin sorğu məktubuna SOCAR prezidenti cənab R.Abdullayev 22.05.2018-ci il tarixli, 18/0113/1524 nömrəli məktubla bildirmişdir ki, torpaq sahəsinin məktuba əlavə olunmuş sənədlərində göstərilən koordinatların UTM WGS 84 koordinat sistemində yoxlanılması nəticəsində müəyyən olunmuşdur ki, həmin torpaq sahəsi Azərbaycan Respublikasının 29.04.2005-ci il tarixli 901-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Binəqədi, Qırməki, Çaxnaqlar, Sulutəpə, Masazır, Fatmayı, Şabandağ, və Sianşor neft yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə əsasən "Binəqədi Oil Kompani" Şirkətinin istifadəsinə verilmiş kontrakt sahəsinin hüdudları daxilində yerləşir və bu səbəbdən, həmin torpaq sahəsindən yalnız təyinatı üzrə istifadə oluna bilər. Saziş ərazisinin hər hansı bir formada özgəninkiləşdirilməsi həmin ərazidə "Binəqədi Oil Kompani" Şirkəti tərəfindən Saziş üzrə nəzərdə tutulmuş neft-qaz əməliyyatlarının aparılması işlərinə, bu da öz növbəsində Azərbaycan Respublikası Hökumətinin, eləcə də SOCAR-ın xarici investorlar qarşısında qanun əsasında götürdüyü öhdəliklərinin yerinə yetirilməsinə maneələr yaradır. Hökumət təminatını və Sazişə əsasən SOCAR-ın Podratçıya neft-qaz əməliyyatlarının aparılması üçün ərazinin təqdim edilməsi öhdəliyini nəzərə alaraq, sözügedən ərazidə hər hansı bir tikinti-quraşdırma işlərinin aparılmasını məqsədəmüvafiq hesab olunmur.

Göstərilənlərə əsasən və Azərbaycan Respublikası Prezidentinin 762 nömrəli, 03.02.2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə" nin 7.4.3-cu bəndi rəhbər tutaraq,

**QƏRARA ALINDI:**

1. SOCAR prezidenti cənab R.Abdullayevin 22.05.2018-ci il tarixli 18/0113/1524 nömrəli məktubunda vətəndaş N.H.Əhmədovun Bakı şəhəri Binəqədi rayonunda sahibkarlıqla məşğul olmaq üçün xüsusi mülkiyyətində olan torpaq sahəsinin "Binəqədi Oil Kompani" Şirkətinə aid olduğunu nəzərə alaraq, orada Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin razılığı olmadan Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəsəbəsi, 1-ci mədən küçəsi, 2-ci döngə,14 saylı ünvanda tikinti aparılması mümkün hesab edilməsin.

2. Vətəndaş N.H.Əhmədovun "Avtotəmir kompleksi"nin tikintisi ilə bağlı şikayəti təmin edilməsin.

3. Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının Katibliyi bu qərarın surətini vətəndaş N.H.Əhmədova, Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasına, Bakı Şəhər İcra Hakimiyyəti Memarlıq və Şəhərsalma Baş İdarəsinə göndərilməsini təmin etsin.

**Bakı Şəhər İcra Hakimiyyətinin**
**Apellyasiya Şurasının sədrinin səlahiyyətlərini icra edən**

**Rasim Quliyev**

/Hüquq şöbəsinin müdiri: Sani Nəsibov/

/Apellyasiya Şurası Katibliyinin rəhbəri: Zaur Ramazanov/

Həmin sorğu məktubuna SOCAR prezidenti cənab R.Abdullayev 22.05.2018-ci il tarixli, 18/0113/1524 nömrəli məktubla bildirmişdir ki, torpaq sahəsinin məktuba əlavə olunmuş sənədlərində göstərilən koordinatların UTM WGS 84 koordinat sistemində yoxlanılması nəticəsində müəyyən olunmuşdur ki, həmin torpaq sahəsi Azərbaycan Respublikasının 29.04.2005-ci il tarixli 901-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Binəqədi, Qırməki, Çaxnaqlar, Sulutəpə, Masazır, Fatmayı, Şabandağ, və Sianşor neft yataqlarının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə əsasən "Binəqədi Oil Kompani" Şirkətinin istifadəsinə verilmiş kontrakt sahəsinin hüdudları daxilində yerləşir və bu səbəbdən, həmin torpaq sahəsindən yalnız təyinatı üzrə istifadə oluna bilər. Saziş ərazisinin hər hansı bir formada özgəninkiləşdirilməsi həmin ərazidə "Binəqədi Oil Kompani" Şirkəti tərəfindən Saziş üzrə nəzərdə tutulmuş neft-qaz əməliyyatlarının aparılması işlərinə, bu da öz növbəsində Azərbaycan Respublikası Hökumətinin, eləcə də SOCAR-ın xarici investorlar qarşısında qanun əsasında götürdüyü öhdəliklərinin yerinə yetirilməsinə maneələr yaradır. Hökumət təminatını və Sazişə əsasən SOCAR-ın Podratçıya neft-qaz əməliyyatlarının aparılması üçün ərazinin təqdim edilməsi öhdəliyini nəzərə alaraq, sözügedən ərazidə hər hansı bir tikinti-quraşdırma işlərinin aparılmasını məqsədəmüvafiq hesab olunmur.

Göstərilənlərə əsasən və Azərbaycan Respublikası Prezidentinin 762 nömrəli, 03.02.2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə" nin 7.4.3-cu bəndi rəhbər tutaraq,

**QƏRARA ALINDI:**

1. SOCAR prezidenti cənab R.Abdullayevin 22.05.2018-ci il tarixli 18/0113/1524 nömrəli məktubunda vətəndaş N.H.Əhmədovun Bakı şəhəri Binəqədi rayonunda sahibkarlıqla məşğul olmaq üçün xüsusi mülkiyyətində olan torpaq sahəsinin "Binəqədi Oil Kompani" Şirkətinə aid olduğunu nəzərə alaraq, orada Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin razılığı olmadan Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəsəbəsi, 1-ci mədən küçəsi, 2-ci döngə,14 saylı ünvanda tikinti aparılması mümkün hesab edilməsin.

2. Vətəndaş N.H.Əhmədovun "Avtotəmir kompleksi"nin tikintisi ilə bağlı şikayəti təmin edilməsin.

3. Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının Katibliyi bu qərarın surətini vətəndaş N.H.Əhmədova, Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasına, Bakı Şəhər İcra Hakimiyyəti Memarlıq və Şəhərsalma Baş İdarəsinə göndərilməsini təmin etsin.

**Bakı Şəhər İcra Hakimiyyətinin**
**Apellyasiya Şurasının sədrinin səlahiyyətlərini icra edən**

**Rasim Quliyev**